# Azərbaycanın təşəbbüsü ilə icra edilən bütün layihələr uğurla nəticələnib

## Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı İlham Əliyev bir daha bu əminliyi ifadə etmişdir ki, Cənub Qaz Dəhlizi ölkəmizin növbəti qələbəsi olacaq

**Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, enerji təhlükəsizliyi əslində hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq mümkün deyil. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində bütün tərəfdaşlar səylərini artırır. Son illər ölkəmizin öz enerji siyasətini ardıcıl şəkildə irəliyə apardığını önə çəkən cənab İlham Əliyev ötən il Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasını görülən işlərin zirvəsi kimi dəyərləndirir: "Əgər əvvəlki dövrlərdə dediyim məsələlər öz həllini tapmasaydı, bu gün Cənub Qaz Dəhlizindən söhbət belə gedə bilməzdi... Əlbəttə, biz gələcəkdə çalışmalıyıq ki, bütün bu işləri tərəfdaş ölkələrlə birgə edək, əlaqələndirmə yüksək səviyyədə olmalıdır."**



Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin icrası nəticəsində həm Azərbaycanın, həm də qonşu və Avropa ölkələrinin böyük fayda götürəcəyi, ölkəmizin bu sahədə də liderlik keyfiyyətlərini göstərdiyi inkaredilməzdir. Bu günlərdə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da cənab İlham Əliyev diqqəti bu məsələyə yönəldərək bildirmişdir ki, Cənub Qaz Dəhlizi Azərbaycanın təşəbbüsü və qonşu ölkələrin fəal iştirakı ilə reallaşan böyük transmilli layihədir. Bu layihə Azərbaycanın uzunmüddətli maraqlarını təmin edəcək, dünya üçün daha da önəmli ölkəyə çevriləcək. Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı 9 ayda önəmli işlər görüldüyünü qeyd edən ölkə Prezidenti bildirmişdir ki, Cənub Qaz Dəhlizi ölkəmizin təşəbbüsü idi və artıq həm "Şahdəniz-2" yatağının işlənməsi, həm TANAP layihəsinin icrası istiqamətində ciddi praktiki addımlar atılır: "Biz çalışırıq və çalışacağıq ki, bu layihə vaxtında icra edilsin. Biz çalışmalıyıq ki, layihənin önəmli hissəsi olan TANAP, - Azərbaycan əsas səhmdardır və bütün məsuliyyət də bizim üzərimizdədir, - vaxtında-2018-ci ildə istifadəyə verilsin."

Son illərdə enerji layihələrinin coğrafiyasının genişləndirilməsi, şaxələndirmə siyasətinin iştirakçı dövlətlərin maraqları baxımından bir daha nəzərdən keçirilməsi, alternativ variantların gündəmə gətirilərək siyasi və iqtisadi əhəmiyyətinin beynəlxalq müzakirəyə çıxarılması bölgədə və dünya birliyində sabitlik və əmin-amanlığın möhkəmlənməsinə yönəlmiş qlobal məsələlərin danışıqlar vasitəsilə həllinə inamı artırır. Rəqabət qabiliyyəti baxımından MDB məkanında birinci olan Azərbaycanın iqtisadi uğurlarını təmin edən, regionda sülhün təminatı üçün səylərini artıran neft-qaz amilinin əhəmiyyəti bütün səviyyələrdə xüsusilə vurğulanır. Ölkə Prezidenti bildirir ki, biz öz enerji təhlükəsizliyimizi çoxdan təmin etmişik və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq. Bu rol müsbət roldur. Bunu bizim tərəfdaşlar qiymətləndirirlər. Azərbaycan heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Bizim bu sahədəki fəlsəfəmiz və yanaşmamız ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməli, birliyi möhkəmləndirməlidir və əlbəttə ki, biz bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Bu gün həm bölgədə, həm dünyada Azərbaycanın maraqları təmin edilir.

Xatırladaq ki, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərdə də bu inam ifadə edilmişdir ki, Azərbaycan Avropa İttifaqına mümkün qədər yaxın olmaq arzusundadır və bu əlaqələrin gələcəkdə böyük potensialı vardır. 2011-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Cənub Qaz Dəhlizi haqqında" Birgə Bəyannaməni əlaqələrin inkişafında başlanğıc kimi dəyərləndirən Avropa Komissiyasının sədri Azərbaycanın bu gün Avropa İttifaqının ən böyük və etibarlı enerji tərəfdaşlarından biri olduğunu bildirmişdir. Qeyd edək ki, həmin Bəyannamədə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında rolu yüksək qiymətləndirilərək, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcudluğu bildirilmişdir. Dövlətimizin başçısı bu əminliyi ifadə edir ki, imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcək. Bu tərəfdaşlıq nəinki illər, onilliklər boyu olacaq.

Azərbaycanın şaxələndirilmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynadığını xüsusi vurğulayan Avropa İttifaqı rəsmiləri bildirirlər ki, ölkəmiz öz ixrac imkanlarını genişləndirməklə Avropanın enerji təhlükəsizliyinin təminatına töhfələr verir. Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimə videomüraciətində Joze Manuel Barrozunun səsləndirdiyi fikirləri bir daha yada salaq. Bu gün Azərbaycanın Avropanın neft ixracatında mühüm rol oynadığını bildirən M.Barrozu qeyd etmişdir ki, Cənub Qaz Dəhlizi yalnız kəmər deyil, XXI əsrin mühüm strateji, enerji dəhlizidir. Cənub Qaz Dəhlizi XXI əsrin layihəsi olacaq. O da vurğulanmışdır ki, Azərbaycan Avropa İttifaqına heç bir vaxt bu qədər yaxın olmayıb. Onun iqtisadiyyatı Avropa bazarları ilə sıx inteqrasiya olunub və bizim əlaqələrimiz daha geniş, təmaslarımız isə daha fəaldır. Avropa İttifaqı müasirləşmə islahatları ilə bağlı Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir və müxtəlif sahələrdə daha da dərin münasibətlər yaratmaq istəyir.

Dünya əhəmiyyətli enerji layihələrinin reallığa çevrilməsi ilə regional iqtisadi inkişafın aparıcı qüvvəsinə və Avratlantik məkanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən, iqtisadi artımın sürətinə görə dünya dövlətləri arasında birinciliyini qoruyan Azərbaycanın inkişaf strategiyası qabaqcıl təcrübə kimi nümunə göstərilir. Enerji amilinin gündəlikdə prioritet məsələlərdən biri kimi dayandığını qeyd edən Prezident İlham Əliyev bildirir ki, enerji siyasəti dostluğa və əməkdaşlığa xidmət etməli, millətləri, xalqları bir-birinə birləşdirməlidir. Avropa İttifaqına daxil olan dövlətlərin maraqlarına uyğun olan Azərbaycanın enerji siyasəti bölgədə regional əməkdaşlığın genişlənməsi üçün etibarlı təminatdır. Xarici ölkələrə səfərləri zamanı da Azərbaycanın iqtisadi imkanlarına diqqəti yönəldən, enerjinin nəql olunması sisteminin şaxələndirilməsində ölkəmizin rolunu xüsusi vurğulayan, gerçəkləşməsi çoxlarına əfsanə kimi görünən layihələrin reallaşması üçün təşəbbüskarlığını artıran Prezident İlham Əliyev bu mövqeyi açıqlayır ki, Azərbaycanın tərəfdaş, müəllif və təşəbbüsçü kimi iştirak etdiyi bütün layihələrdə xalqın milli maraqları, dövlətin mənafeyi hər şeydən üstün tutulmalıdır.

Ölkəmizin qitə dövlətləri üçün etibarlı tərəfdaş olduğu bu gün beynəlxalq səviyyədə ən çox səsləndirilən fikirlər sırasındadır. Prezident İlham Əliyev ölkəmizin daim marağında olan enerji layihələrinin şaxələndirilməsi prinsipinin diqqətdə saxlanılacağını vurğulamaqla qeyd edir ki, Avropa Azərbaycan qazı üçün mühüm bazara çevriləcək, eyni zamanda Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyinə xidmət edəcək önəmli layihədir.

Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin iclasında digər layihələrdən də geniş bəhs etmişdir. TAP Azərbaycan qazını Türkiyə, Yunanıstan, Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. Dəyəri 2,2 milyard dollar həcmində proqnozlaşdırılan, əsas mənbəyi "Şahdəniz"in ikinci layihəsi olan TAP-ın səhmdarları İsveçrənin "AXPO" ( 42,5 faiz) , Norveçin "Statoyl" (42,5 faiz) və Almaniyanın "E.ON Ruhrqas" ( 15 faiz) şirkətləridir. Proqnozlara əsasən, ikinci fazada 2016-cı ildə 10 milyard kubmetr "mavi yanacaq" Avropaya çatdırılacaq, sonra isə 20 milyard kubmetrədək artırılacaq.

TAP layihəsinin ölkələr arasında əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminlik ifadə olunur. "TAP Azərbaycan, Yunanıstan, İtaliya və Albaniya arasında münasibətləri daha da gücləndirəcəkdir. Biz Xəzər dənizi, Qafqaz və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq. Bu, bizim hamımıza fayda verəcəkdir. TAP layihəsinin reallaşması nəticəsində çoxlu işlər olacaq, minlərlə yeni iş yeri yaradılacaqdır. Bu da Azərbaycana Avropa bazarına enerjini təchiz etmək üçün yeni marşrutun yaradılmasından ibarət strateji məqsədləri tam yerinə yetirmək imkanını verəcəkdir" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, biz bu məqsədə nail olacağıq, çünki bu günədək işlər qrafik üzrə gedir. İtaliya rəsmiləri də Azərbaycan qazının Avropaya nəqli üçün TAP-ın seçilməsini alqışlayaraq bildirmişdilər ki, bu, Avropanın enerji təhlükəsizliyi və rəqabət qabiliyyətinin gücləndirilməsi, eləcə də İtaliyanın aparıcı ticarət tərəfdaşlarından olan Azərbaycanla ikitərəfli münasibətlərin genişləndirilməsi yolunda mühüm addımdır.

Göründüyü kimi, dünya enerji bazarında mövqeləri möhkəmlənən, investisiya imkanları artan Azərbaycanın təşəbbüsləri dəstəkləndiyi kimi, mövqeləri də möhkəmlənməkdədir. Dövlətimizin başçısı bir məqamı da xüsusi qeyd edir: "Birinci böyük layihələrin icrası nəticəsində bizim şirkətlərimiz, demək olar ki, ayağa qalxa bilmişlər, kapital, təcrübə toplamışlar. Ondan sonra Azərbaycana investisiya qoymağa başlamışlar. Mən də onlara bunu tövsiyə edirdim və eyni zamanda, Azərbaycanda belə bir şərait yaratmışıq ki, buraya investisiya qoymaq ən sərfəli yoldur. İndi başqa ölkələrə investisiya qoymaq, əlbəttə ki, lazımdır və biz də dövlət kimi bunu edirik." Qeyd edək ki, cari ilin ötən dövründə ölkə iqtisadiyyatına böyük həcmdə-16 milyard dollar investisiya qoyulub. Onlardan 9 milyard dolları daxili, 7 milyard dolları isə xarici sərmayədir. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi tanınır. Son on iki ildə ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmi 180 milyard dollara çatıb. Bu fikir də hər zaman önə çəkilir ki, sabitlik iqtisadi inkişafın əsas məsələsidir. Təbii ki, sabitlik olmasa, hansısa inkişafdan, ən əsası investorların ölkə iqtisadiyyatına böyük həcmdə vəsait qoyulmasından danışmaq mümkünsüzdür.

Ölkəmizin iqtisadi və maliyyə imkanlarının artmasının, eyni zamanda Azərbaycana olan inamın nəticəsidir ki, indiyədək BTC, BTƏ kimi neft-qaz kəmərləri ilə Türkiyədən keçməklə Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında iştirak edən Azərbaycan daha yeni-yeni layihələrdə iştirak etməklə iki və çoxtərəfli əməkdaşlıqda maraqlı olduğunu təsdiqləyir: "Azərbaycanın öz böyük qaz ehtiyatları üçün iri bazarlara ehtiyacı vardır. Avropanın da yeni qaz mənbələrinə və marşrutlarına ehtiyacı vardır. Bizim icra etməyə başladığımız "Şahdəniz", TANAP və TAP layihələri həqiqətən də şaxələndirmə layihələridir. Çünki bu, sadəcə Avropaya qazın təchizi üzrə yeni marşrut deyil, ən önəmlisi bu, yeni qaz mənbəyidir. Bu, çoxhəcmli mənbədir."

Qeyd olunanlar bir daha bu reallığın təsdiqidir ki, neft-qaz layihələrimiz, kəmərlərimiz Azərbaycanı dünya miqyasında çox önəmli enerji hasilatçısı kimi ciddi ölkəyə çevirib. Azərbaycanın gələcəyə hesablanmış inkişaf strategiyası daha böyük uğurlara stimul verir. Dövlətimizin başçısı İlham Əliyevin Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş mərasimdə söylədiyi "Bu günə qədər bizim qaz və neft layihələrimizdə ancaq 3 ölkə iştirak edirdi - Azərbaycan, Gürcüstan və Türkiyə. Bu gündən sonra biz geniş beynəlxalq əməkdaşlıq prosesinə qədəm qoyuruq. Azərbaycan qaz istehsalçısı kimi öz resurslarını dünya bazarına çıxaracaq. Ondan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr bu layihəyə qoşula bilərlər. Ona görə, burada əlaqələndirmə işləri çox yüksək səviyyədə aparılmalıdır. Mən hesab edirəm ki, bu gün bu sahədə - neft-qaz sahəsində yeni beynəlxalq komanda formalaşır. Komandanın bütün üzvləri bu gün salondadırlar. Əminəm ki, bizim birgə fəaliyyətimiz uğurlu olacaq və komandamız qələbə qazanacaqdır" fikirləri də uğurlarımızın, birgə əməkdaşlığımızın fonunda gələcəyə inamın təsdiqidir. Cənab İlham Əliyev Azərbaycanın təşəbbüsü ilə icra edilən bütün layihələrin uğurla nəticələndiyini önə çəkərək bu əminliyi ifadə edir ki, Cənub Qaz Dəhlizi ölkəmizin növbəti qələbəsi olacaq.

**Yeganə Əliyeva,**
***"İki sahil"***